Elm.- 2025.- 4 aprel(№12).- S.7.

# Azərbaycanlı alimlərin həmmüəllifi olduğu kitab Londonda "IntechOpen" elmi nəşriyyatı tərəfindən çap edilib

**AR ETN Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun və Azərbaycan Tibb Universitetinin əməkdaşlarının həmmüəllifi olduğu "Ətraf mühitdəki ağır metallar - çirklənmə, risk və bərpa tədbirləri" ("Heavy Metals in the Environment - Contamination, Risk, and Remediation") adlı kitab "IntechOpen" elmi nəşriyyatı tərəfindən çap edilib.**

Kitabda xüsusi yer ayrılmış "Perspektivli fəslin: ağır metallar - ekosistemlərə daxil olma mənbələri, bioloji əhəmiyyəti, toksikliyi və sorbsiya üsulları" (Perspective Chapter: Heavy Metals - Sources of Releasing Into Ecosystems, Biological Importance, Toxicity, and Sorption Methods) adlı hissənin həmmüəllifləri AMEA-nın vitse-prezidenti akademik Dilqəm Tağıyev, k.e.d. N.Zeynalov, k.ü.f.d. S.Fətullayeva və tibb ü.f.d. Ş.Tağıyevdir.




13 fəsildən və üç hissədən ibarət olan kitabda ağır metallarla çirklənmə, əlaqəli risklər və remediasiya strategiyaları üzrə müasir tədqiqatların hərtərəfli sintezi təqdim edilir. Kitabda müxtəlif yaşayış yerlərində ağır metalların miqrasiyası, çirklənməsi və çevrilməsi haqqında məlumat verilir. Təbii sistemlərdə ağır metalların davranışını təyin edən kimyəvi, fiziki və bioloji proseslər nəzərdən keçirilir, mövcud tədqiqatlara kritik bir baxış verilməklə bu mexanizmlərin ətraflı anlaşılmasını təmin etmək üçün konkret nümunələr göstərilir. Ağır metalların insan sağlamlığı və ekosistemlər üçün yaratdığı risklər də nəzərdən keçirilir. İqtisadi cəhətdən inkişaf edən bölgələrdə və yüksək sənaye aktivliyi olan ərazilərdə ağır metalların toksikoloji təsirlərinə xüsusi diqqət yetirilir. Həmçinin bərpa texnologiyaları və ağır metal çirklənməsinə qarşı tədbirlər də nəzərdən keçirilir.

Bu kitab ətraf mühit və ekologiya, kimya, mühəndislik və ictimai səhiyyə daxil olmaqla müxtəlif sahələrdə ekspertlər və tədqiqatçılar üçün dəyərli mənbədir. Qeyd etmək lazımdır ki, Mitsuo Yoshida tərəfindən redaktə edilən kitab "Web of Science" (Book Citation Index) bazasında indeksləşdirilib.

"IntechOpen" elm, texnologiya və tibb sahələrində jurnalların və kitabların aparıcı qlobal nəşriyyatçısı və paylayıcısıdır. Bu təşkilatın məqsədi tədqiqatçıların elmi işlərini dünyanın müxtəlif ölkələrində yaymağa kömək etməkdir.